# KİMYANIN İLK ANLAYIŞ VƏ TERMİNLƏRİ MÜASİR TƏSƏVVÜRLƏRDƏ

***N.Ə. Əkbərov***

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Kimyanın ilk əsas anlayışları orta məktəbin VII sinif kimya dərsliyində [1] və demək olar ki, ali məktəbə daxil olmaq istəyənlər üçün yazılmış bütün kimya vəsaitlərində, məsələn, [2-8] saylı ədəbiyyatlarda və s. şərh edilmişdir. Hər bir fənnin ilk anlayış və terminlərinin sadə və asan dildə ətraflı izahı oxucularda bu fənnə qarşı rəğbət hissi oyadaraq, onu daha mükəmməl surətdə öyrənməyə sövq edir. Bu məqalədə də kimyanın ilk anlayış və terminlərini müasir təsəvvürlər əsasında, daha sadə və anlaşıqlı şəkildə izah etməyə çalışmışıq. Ona görə də ümid edirik ki, kimya elmi ilə ilk tanışlığa başlayan məktəblilər üçün bu məqalə çox faydalı olacaq və onlarda kimya elminə böyük maraq doğuracaqdır.

**Kimya fənni, onun vəzifələri və xalq təsərrüfatının inkişafında rolu.** Kimya - təbiət elmlərindən biri olub, maddələrin tərkibini, quruluşunu, xassələrini, çevrilmələrini və bu çevilmələri idarə edən qanunları öyrənir. Kimyanın yaranması və inkişaf tarixi çox qədim olub, Misir, Çin, Hindistan, Yunanıstanla bağlıdır. Kimya sözünün əmələ gəlməsi haqqında da müxtəlif fikirlər vardır. Eramızdan 100 il əvvəl yunan tarixçisi Plutarxın fikrincə, kimya "kemia" sözündən əmələ gəlmişdir ki, bu da qədim Misirin adıdır. Belə də güman edilir ki, kimya yunanca tökmə metal mənasını verən "kima" sözündən yaranmışdır. Kimya elmi ilk dəfə qədim Misirdə meydana çıxmışdır. İlk kimyaçı da tanınmış Fars əlkimyaçısı **Cabir ibn Həyyan** olmuşdur (721-815). İbn Həyyan ilk dəfə kimyada (əlkimyada) eksperimental metodları tətbiq edərək, xlorid və nitrat turşularının sintezini həyata keçirmiş, distillə və kristallaşma kimi mühüm prosesləri kəşf etmişdir.

Azərbaycanın ilk kimyaçı alimi Almaniyada təhsil almış **Mövsümbəy Xanlarovdur.** Ali məktəbdə tədrislə məşğul olan kimyaçı alimimiz isə ADU-nin kafedra müdiri, professor Sadıx Hüseynov olmuşdur. O, qeyri-üzvi kimyanın tədrisi ilə əlaqədar bir çox kitabların müəllifidir. Azərbaycanda kimyanın tədrisi ilə bağlı professor Məmməd Mövsümzadəni və professor Həbibulla Şaxtaxtinskini, kimya elminin inkişafına öz töhvələrini verən alimlərə isə misal olaraq Yusif Məmmədəliyevi, Əli Quliyevi, Ələddin Quliyevi, İbrahim Şıxıyevi, Murtuza Nağıyevi, Toğrul Şaxtaxtinskini, Sahib Əliyevi və başqalarını göstərmək olar.

Kimyanın əsas tədqiqt obyekti maddə və onun təşkil olunduğu molekul və atomlardır. Gözlə görünən hər hansı bir əşya – fiziki cisim maddələrdən, maddələr

molekullardan, molekullar da atomlardan ibarətdir.

Hər bir təbiət elmi insanların maddi və mənəvi rifah halının yüksəlməsinə xidmət etməlidir! Bu baxımdan kimya elminin də iki başlıca vəzifəsi vardır:

1) Təbiətdə hazır şəkildə olan təbii xammallardan ilkin maddə kimi istifadə etməklə insanların tələbatına uyğun xeyirli xassəli maddələr (məsələn, dərmanlar, boyaqlar, polimerlər, sürtkü yağları, yanacaqlar, müxtəlif təyinatlı şüşələr, çini materiallar, xəlitələr, ərintilər və s. sintez etmək, bu zaman baş verən hadisələrin mahiyyətini, qanunauyğunluqları araşdırmaq.

2) Kimyəvi reaksiyaların istilik effektindən enerji mənbəyi kimi insanların ehtiyacını ödəmək üçün istifadə etmək.

Kimya elmi bu ümdə vəzifələri yerinə yetirdikcə, yeni-yeni maddələr, reaksiyalar, qanunauyğunluqlar, prinsiplər kəşf olunur. Buna uyğun olaraq, son nəticədə kimyanın bütün sahələri tədricən, əlaqəli şəkildə inkişaf edir və sivilizasiyanın təşəkkül tapmasına xeyli yardımçı olur. İnsanların maraq və tələbatlarının gündən-günə artması da kimya elminin sürətli inkişafı üçün zəmin yaradır və ona təkan verir.

**Kimyanın təbiət elmləri arasında mövqeyi.** Kimya elmi – təbiət elmi olduğundan, digər təbiət elmləri ilə, xüsusilə, biologiya, geologiya, fizika, ekologiya və s. elmlərlə sıx əlaqəli şəkildə inkişaf edir. Əbəs deyildir ki, hələ XVIII əsrdə dahi rus alimi M.V.Lomonosov demişdir ki, riyaziyyat kimyanın gözü, fizika isə onun sağ əlidir.

Təbiətdə baş verən bir çox dəyişikliklər – yeni-yeni maddələrin əmələ gəlməsi, onların canlı orqanizmlərdə uğradıqları çevrilmələr, fotosintez, assimlyasiya-dissimlyasiya, digər biokimyəvi proseslər kimyəvi hadisələrdir. Bu proseslərin kimyası öyrənildikcə, orqanizmdə baş verən bütün bioloji proseslərin mahiyyətini də dərk etmək asanlaşır.

**Maddələr və onların xassələri.** Gözlə görünən hər bir əşya fiziki cisimdir. Fiziki cisim də nədən təşkil olunarsa, o, maddə adlanır. Maddə – sükunət kütləsinə malik materiya növüdür. Məsələn, kimyəvi stəkan cisim, onun təşkil olunduğu şüşə material isə maddədir. Cəngəl, qaşıq, qayçı, bıçaq cisim, onların hazırlandığı metal – məsələn, polad, gümüş, dəmir və s. isə maddədir.

Hər hansı bir maddə müəyyən fiziki və kimyəvi xassələrə malik olub, molekul, atom və ya ionlardan təşkil olunmuşdur.

Hər bir maddə fiziki və kimyəvi xassələrlə xarakterizə olunur. Fiziki xassələrə maddənin aqreqat halı, rəngi, iyi, dadı, sıxlığı, ərimə və qaynama temperaturu, şüasındırma əmsalı, həllolma qabiliyyəti, istiliyi və ya elektriki keçirmə qabiliyyəti və s. aiddir. Kimyəvi xassələrə isə maddələrin digər maddələrə çevrilmə qabiliyyəti aiddir.

**Saf maddələr və qarışıqlar. Qarışıqların ayrılma üsulları.** Qeyd olunduğu kimi, fiziki cisimlər maddələrdən, maddələr molekullardan, molekullar

atomlardan, atomlar isə daha kiçik elementar hissəciklərdən təşkil olunmuşdur. Maddələr saf maddələrə və qarışıqlara bölünür. Təbiətdə saf maddəyə rast gəlinmir. Saf maddələr – sabit xassələrə malik olub, eyni növ hissəciklərdən təşkil olunmuşdur. Məsələn, su, oksigen, azot, qlükoza və s.

Eyni növ molekullardan təşkil olunmuş maddələr saf maddələr adlanır. Onlar sabit fiziki-kimyəvi xassələrə malik olur və konkret formullarla (çoxatomlu bəsit və bütün mürəkkəb maddələr, məsələn, $H_2$, $O_3$, $H_2O$, $C_2H_5OH$ və s.) və ya kimyəvi işarələrlə (biratomlu bəsit maddələr, məsələn, He, Fe, P, Si və s.) ifadə edilir. Saf maddələrin xassələri zaman keçdikcə sabit qalır:




Təbiətdə, adətən, saf maddələrə rast gəlmək olmur.

Molekulyar maddələr molekullardan, molekullar da atomlardan təşkil olunub. Maddələr haqqındakı ilk təsəvvürlər bizim eramızdan qabaqkı əsrə aiddir. Qədim Hind fəlsəfəsində bizi əhatə edən aləmin 5 maddədən – efir, hava, alov, su və torpaqdan təşkil olunduğu iddia edilirdi. Qədim Çin fəlsəfəsində efiri ağac ilə əvəz etdilər. Elmin inkişafı nəticəsində maddəyə verilən tərif də təkmilləşirdi. 1928-ci ildə çıxan ensiklopediyada «Maddə – bütün fiziki cisimlərin qurulduğu materialdır», Böyük Sovet Ensiklopediyasında (V cild): Maddə haqqında «Maddə, fiziki sahədən fərqli olaraq, sükunət kütləsinə malik olan materiya növüdür» kimi tərif də olub. Hər mərhələdə verilmiş tərif həmin dövrün bilik səviyyəsinə uyğun gəlirdi.

Maddə - xüsusi kütləsi olan hissəciklərdən (məs. elementar hissəciklər, atom, molekul, qaz, maye, bərk maddələr və s.) təşkil olunmuşdur. Maddə materiyanın ayrı-ayrı növü olub, sabit fiziki xassələrə malikdir. Maddələr təmiz və qarışıq halda olurlar.

Qarışıqlar – sabit xassələrə malik olmayıb, müxtəlif növ molekullardan təşkil edilmişdir. Onlar konkret kimyəvi formulla ifadə oluna bilmir. Təmiz maddə eynicinsli, qarışıqlar isə eyni və müxtəlifcinsli olurlar:

a) Eynicinsli (homogen) qarışıqlar – tərkib hissələri gözlə və ya mikroskopla ayird edilməyən, bircinsli qarışıqlardır. Məsələn, hava, benzin, mineral sular və s.

b) Müxtəlifcinsli (heterogen) qarışıqlar – tərkib hissələri gözlə və ya mikroskopla ayird edilə bilən, bircins olmayan qarışıqlardır. Məsələn, süd, bulanıq su, duman, neft-su qarışığı və s.

Tərkibində heç bir qarışığı olmayan mütləq təmiz (saf) maddə əldə etmək

çox çətindir. Dərman maddələrinin tərkibində belə çox çiçicik miqdarda da olsa qarışıqlar olur. Ona görə də praktikada o maddələr saf hesab edilir ki, onlar, əsasən bir növ molekullardan təşkil olsun və onun tərkibində digər növ molekullar o qədər az olsun ki, maddənin xassələrinə təsir edə bilməsin. Məsələn, yağış suyunu və ya bulaqdan axan suyu biz saf hesab etsək də onun tərkibində az da olsa, digər molekullar olur. Reallıqda həmişə saf hesab etdiyimiz maddə əsl həqiqətdə az da olsa, qarışıqlara malik olur.

Qarışıqlardan müxtəlif metodlarla saf maddələri ayırmaq olur. Eynicinsli qarışıqlar bir neçə üsulla ayrılır:

a) Distillə - mayelərin homogen qarışığından onların qaynama temperaturunun müxtəlifliyinə əsaslanan ayrılma üsuludur. Bu metodla bir-birində həll olmuş müxtəlif mayeləri ayırırlar. Bunun üçün şəkil 1.2.-də göstərilən distillə qurğusu yığılır. Qaynama temperaturu kiçik olan maddə birinci distillə olunur, onun buxarları soyuducuda kondensləşərək qəbuledicidə toplanır (şəkil 1).



**Şəkil 1. Distillə qurğusu:** 1- Vürs kolbası, 2- soyuducu, 3- termometr, 4- alonj, 5- qəbuledici

b) Kristallaşdırma - bərk halda olan üzvi maddələrin ən geniş yayılmış təmizlənmə üsulu olub, maddələrin sıxlığının, həllediciləгdə həll olmasının müxtəlifliyinə və temperaturdan asılılığına əsaslanır. Bu metodla bərk maddə həll olduğu mayedən ayrılır.

c) Buxarlandırma – mayedə həll olmuş bərk maddəni səthi geniş olan qabdan mayeni buxarlandırmaqla həyata keçirilir.

d) Xromatoqrafiya – maddələrin adsorbsiya qabiliyyətlərinin müxtəlifliyinə əsaslanır. Bu metodla, adətən, dərman maddələri təmizlənir.

Müxtəlifcinsli qarışıqlar da bir neçə üsulla ayrılır:

a)Süzmə - bərk maddəni onun həll olmadığı mayedən ayırmaq üçün tətbiq edilir. Bəzən bərk-maye heterogen qarışıqdan mayeni ehtiyatla digər qaba tökməklə (dekantasiya) onu bərk maddədən ayırmağa çalışırlar. Lakin bu halda qarışığı tam ayırmaq mümkün olmur; ona görə də belə qarışıqlar sadə ayrılma metodu olan süzmə ilə həyata keçirilir və bu zaman çox sadə kimyəvi qablardan – adi qıflardan istifadə edilir (şəkil 2). Qarışıq daxilində filtir kağızı olan sadə qıfdan buraxilir. Bircins maye filtirdən süzülərək qəbulediciyə keçir. Filtir kağızının üzərində isə həlledicidə həll olmayan bərk maddənin kiçik hissəcikləri

qalır və beləliklə də heterogen qarışıq tərkib hissələrinə ayrılır.



**Şəkil 2. Heterogen qarışığın filtirdən süzülməsi**

b) Durultma – bu metodla bərk və maye maddələr həll olmadığı mayedın ayrılır. Bu metod ayrılacaq maddələrin sıxlığının və həllolma qabiliyyətinin müxtəlifliyinə əsaslanır. Məsələn, bulanıq suyun durulması. Bunun üçün bulanıq su kimyəvi stəkana tökülür və bir müddət sakitcə saxlanılır (şəkil 3). Nəticədə onun tərkibindəki həll olmayan ağır hissəciklər çökür və beləliklə də su durulur. Onu kimyəvi stəkanın buruncuğundan digər stəkana tökməklə çökən qarışıqlardan ayırırlar. İki mayenin heterogen qarışığı ayırıcı qıfla ayrılır (şəkil 4).



**Şəkil 3. Bulanıq suyun durulması**



**Şəkil 4. Ayırıcı qıfla mayelərin ayrılması**

Bu metod da ayrılacaq maddələrin sıxlıqlığının və həllolma qabiliyyətinin müxtəlifliyinə əsaslanır. Ağır maye aşağıda, yüngül maye isə yuxarıda olur. Kranı açmaqla ağır maye qəbulediciyə boşaldılır və dərhal kran bağlanır, qıfda isə yüngül maye qalır, nəticədə bir-birində həll olmayan iki maye bir-birindən ayrılır.

c) Maqnitlə təsir etməklə - bu metod maddələrin ferromaqnit xassələrinin müxtəlifliyinə əsaslanıb. Belə ki, maqnit təsiri ilə ferromaqnit xassəli maddələr, məsələn dəmir qırıntıları digər qarışıqlardan ayrılır.

Bu əsas ayrılma üsullarından əlavə sublimasiya üsulu da mövcuddur. Sublimasiya - ərimə temperaturundan aşağı temperaturda bərk maddənin buxarlanaraq qaz halına keçməsidir. Sublimasiya edən maddəni qızdırdıqda buxarlanır, soyutduqda isə maye hala keçmədən, bərkiyir (kristallaşır). Sublimasiya ilə təmizləmədən o vaxt istifadə olunur ki, qətranların və ya çətin ayrılan qarışıqların olması, həmçinin, bərk maddəni adi həlledicilərdə çox çətin və ya çox asan həllolması səbəbindən yenidən kristallaşdırma ilə təmizləmək mümkün olmasın.

**Fiziki və kimyəvi hadisələr. Kimyəvi reaksiyaların əlamətləri, başlanması və getməsi şərtləri.** Təbiətdə baş verən hər hansı bir dəyişiklik hadisə adlanır. Hadisələr öz mahiyyəti etibarı ilə iki yerə ayrılır:

a) Fiziki hadisələr – maddə tərkibinin dəyişməməsilə baş verir və nəticədə maddələrin yalnız zahiri görünüşü dəyişir. Belə hadisələrə maddələrin aqreqat hallarının dəyişməsi, xırdalanması, dağılması, parçalara ayrılması, cırılması, sınması və s. aiddir. Fiziki hadisələr zamanı maddə molekulu tərkibini dəyişmir. Məsələn, buz, su, su buxarı, istər stəkanın içərisində olan, istərsə yerə dağılmış və ya çayda axan, göldə, dənizdə olan su və yağış suyu - bunların hamısının tərkibi eynidir: $H_2O$. Onların bir-birinə qarşılıqlı cevrilməsi, bir yerdən başqa yerə tökülməsi, daşınması fiziki hadisədir – hadisə nəticəsində tərkib sabit qalır.

Ərimə, qaynama, sublimasiya prosesləri endotermik, desublimasiya, kondensləmə, kristallaşma prosesləri isə ekzotermikdir:

$$\text{Bərk maddə} \xrightarrow{\text{ərimə}} \text{maye} \xrightarrow{\text{qaynama}} \text{qaz}$$

sublimasiya ⟶

desublimasiya ⟵

b) Kimyəvi hadisələr - maddə tərkibinin dəyişməsilə baş verir və nəticədə bir maddədən tamamilə başqa bir maddə alınır. Onlara aiddir: yanma, çürümə, paslanma, qıcqırma, korroziya, oksidləşmə, reduksiya, krekinq, piroliz, elektroliz, suyun codluğunun aradan qaldırılması və ş. Kimyəvi hadisələrə kimyəvi reaksiyalar da deyilir. Kimyəvi reaksiyalar da kimyəvi tənliklərlə ifadə olunur. Kimyəvi hadisələrin kiyəvi formullarla ifadəsi kimyəvi tənlik adlanır. Məsələn, təbii qazın yanma reaksiyasının tənliyi belədir:

$$CH_4 + 2O_2 \rightarrow CO_2 + 2H_2O$$

Kimyəvi reaxsiyalar zaman maddənin tərkibi dəyişir, bir maddədən tamamilə başqa tərkibli yeni bir maddə alınır. Məsələn, qaz yataqlarından təbii qazın çıxarılması, onun anbarlara yığılması və oradan da mətbəxə nəql olunması fiziki hadisələr, təbii qazın mətbəxdə yanması isə kimyəvi hadisədir (onun əsas tərkib hissəsi olan metan – $CH_4$ yanaraq, karbon qazına – $CO_2$ və suya – $H_2O$ çevrilir):

$$CH_4 + O_2 \rightarrow CO_2 + H_2O$$

Digər bir misal: suya natrium metalını saldıqda o (Na), tamamilə başqa bir maddəyə - natrium-hidroksidə (NaOH) çevrilir. Natrium metalının bıçaqla doğranılaraq kiçik parçalara ayrılması fiziki, onun su ilə q**a**rçılıqlı təsiri isə kimyəvi hadisədir (şəkil 5):

$$Na \rightarrow NaOH$$



**Şəkil 5. Soldakı - fiziki, sağdakı isə kimyəvi hadisədir**

Kimyəvi hadisələr fiziki effektlərlə müşahidə edilir:

1. Rəngin dəyişməsi. Məsələn:

$Na_2S + CuCl_2 \rightarrow CuS + NaCl$

2. Qazın əmələ gəlməsi. Məsələn:

$Na + H_2O \rightarrow NaOH + H_2\uparrow$

3. Çöküntünün əmələ gəlməsi. Məsələn:

$NaCl + AgNO_3 \rightarrow AgCl\downarrow + NaNO_3$

4. İyin əmələ gəlməsi. Məsələn:

$NH_4Cl + NaOH \rightarrow NaCl + NH_3 + H_2O$

5. İstiliyin əmələ gəlməsi. Məsələn:

$CH_4 + O_2 \rightarrow CO_2 + H_2O + Q$

6. İstiliyin udulması. Məsələn:

$N_2 + O_2 \rightarrow NO - Q$

7. İşığın əmələ gəlməsi. Məsələn:

$CH_4 + O_2 \rightarrow CO_2 + H_2O + Q$

8. Mayedən qazın əmələ gəlməsi. Məsələn:

$H_2O \rightarrow H_2 + O_2$

9.Qazdan bərk maddənin əmələ gəlməsi. Məsələn:

$NH_3 + HCl \rightarrow NH_4Cl$

10. Bərk maddədən qazın əmələ gəlməsi. Məsələn:

$HgO \rightarrow Hg + O_2$ və s.

Yalnız fiziki və yalnız kimyəvi hadisələrlə yanaşı, fiziki-kimyəvi hadisələr də baş verə bilir. Məsələn, maddələrin polyar həlledicilərdə həll olması fiziki-kimyəvi hadisədir. Belə ki, həllolma zamanı bir-birini tamamlayan iki ardıcıl proses eyni bir anda baş verir. Həll olan maddənin həlledici daxilində paylanması – diffuziyası fiziki, onun molekullarının həlledici molekulları ilə qarşılıqlı təsiri isə kimyəvi hadisədir. Həlledici su olanda bu, hidratlaşma, spirt olanda alkohollaşma və s. (ümumi ad altında isə solvatlaşma adlanır).

Kimyəvi reaksiyaların baş verməsi üçün ilk növbədə reaksiyaya daxil olan maddələr – reagentlər bir-biri ilə yaxşıca qarışmalıdır. Bərk maddələr həlledicilərdə həll edildikdə onların qarışması daha effektli olur və reaksiya məhlulda aparılır.Qeyri-üzvi maddələr arasındakı reaksiyalar adətən suda məhlulda aparılır.

Reaksiya suda məhlulda o vaxt axıra kimi gedir ki:

a) suda həll olmayan maddə (çöküntü)

b) qaz

c) zəif elektrolit alınsın.

Bütün bunlarla yanaşı, müxtəlif sinif üzvi və qeyri-üzvi maddələr arasındakı reaksiyalar müəyyən bir şəraitdə gedir və şəraitdən asılı olaraq, müxtəlif reaksiya məhsulları alına bilir.

Qazlar arasındakı reaksiyalar, adətən təzyiq altında, bəzi reaksiyalar qızdırmaqla, bəziləri soyudulmaqla, bəziləri katalizator iştirakı ilə və s. gedir.

Hər şeydən əvvəl, reaksiyaya girən maddələrin molekulları müəyyən aktivləşmə enerjisi almalıdır ki. onlar bir-biri ilə təmasda ola bilsinlər. Bu enerli – aktivləşmə enerjisi adlanır.

**Atom-molekul təlimi.** Atom-molekul təlimi müasir təbiətşünaslığın əsasını təşkil edir. Bu təlimə görə, materiya gözlə görünməyən və daima hərəkətdə olan kiçik hissəciklərdən — atomlardan təşkil olunmuşdur. (Yunanca "Atmos" bölünməz deməkdir). Atomlar bir-birilə birləşərək molekulları əməlkə gətirir və bütün maddələr belə molekullardan təşkil olunmuşdur. Atom-molekul təliminin banisi M.V.Lomonosov olmuşdur. O, "Riyazi kimyanın elementləri" əsərində maddələrin quruluşu haqqında korpuskulyar nəzəriyyə irəli sürmüşdür. Lomonosov öz mülahizələrinə əsaslanaraq maddələrin kiçik hissəciklərdən əmələ gəlməsi ideyasını qəbul etmişdir. Lomonosova görə ,hissəciklər iki növə ayrılır: "korpuskullar" (molekullar) və "elementlər" (atomlar). Lomonosovun atom-molekul təlimi aşağıdakı müddəalardan ibarətdir:

1) Bütün maddələr molekullardan ibarətdir; molekullar daha kiçik hissəciklərdən — atomlardan təşkil olunmuşdur.

2) Atom və molekullar daim hərəkətdədir; onlar müəyyən kütlə və ölçüləri ilə birbirindən fərqlənirlər.

3) Bəsit maddələrin molekulları eyni, mürəkkəb maddələrin molekulları müxtəlif atomlardan təşkil olunmuşdur. Atom-molekul haqqındakı təlim, atom və molekul məfhumlarının tərifi 1860-cı ildə Almaniyanın Karlsruye şəhərində kimyaçıların beynəlxalq qrultayında qəbul edilmişdir. Atom haqqında təlimin inkişafında ingilis alimi Con Daltonun da xidmətləri olmuşdur.

Müasir təsəvvürlərə görə, atom — maddənin kimyəvi yolla bölünməyən ən kiçik hissəciyi olub, kimyəvi elementin bütün xassələrini özündə saxlayır və:

a) kütlə

b) ölçü

c) kimyəvi işarə

d) nüvəsinin yükü (bu hər bir atomun əsas göstəricisidir) və s. xassələrlə xarakterizə olunur.

Məsələn, hidrogen atomu H ilə işarə olunur (kütləsi $1/6{,}02 \cdot 10^{23}$ kimidir),

nüvəsinin yükü +1 dir, ən kiçik atom radiusuna malikdir və s.

Atomlar bir çox hallarda tək mövcud ola bilmir və öz aralarında birləşərək atom qrupları – molekulları əmələ gətirir. Atom və molekullar hətta elektron mikroskopları ilə görünə bilməyən çox kiçik hissəciklərdir. Bizim ana dilimizin əlifbasında olan 32 hərfdən çoxlu sayda sözlər əmələ gəldiyi kimi, müxtəlif atom növləri də öz aralarında müəyyən qanunauyğunluqlarla birləşərək, ətraf mühiti əhatə edən sonsuz sayda molekullar və ya kristallar yarada bilər. Ona görə də kimya elmi inkişaf etdikcə, molekul və kristalların sayı gündən-günə sürətlə artır.

Atomun kimyəvi xassələri onun quruluşu ilə müəyyən edildiyindən atomun müasir tərifi belədir: Atom müsbət yüklü nüvədən və mənfi yüklü elektronlardan ibarət olan, kimyəvi cəhətcə bölünməz ən kiçik elektroneytral hissəcikdir. Molekul atomun əksinə olaraq bölünəndir və maddənin bütün kimyəvi xassələrini özündə saxlayan ən kiçik hissəcikdir.

Molekullar isə atomlardan ibarətdir və bəzi atomlardan fərqli olaraq, sərbəst yaşaya bilir. Onlar maddənin bütün xassələrini özündə əks etdirən ən kiçik hissəciyi olub:

a) kütlə

b) ölçü

c) kimyəvi formul

d) quruluşla (bu hər bir molekulun əsas göstəricisidir) və s. xassələrlə xarakterizə olunur. Məsələn, su molekulu $H_2O$ formuluna malik olub, (kütləsi $18/6,02{\cdot}10^{23}$ kimidir) bucaq quruluşludur, polyardır və s.

Müxtəlif maddələrin molekullarında atomlar bir-biri ilə müəyyən bir ciddi qanunauyğunluqla birləşir. Atomların molekulda düzülüş ardıcıllığı molekulun qyruluş formulunu müəyyən edir. Molekulun tərkibinin kimyəvi işarələrlə ifadəsi isə kimyəvi formul adlanır. Məsələn, bəzi maddələrin formulu: azot - $N_2$, su - $H_2O$, oksigen - $O_2$, ozon - $O_3$, karbon qazı - $CO_2$ və s.

Molekul modelləri də atomların molekulda birləşmə ardıcıllığını və molekulun fəza quruluşunu göstərir. Məsələn, şəkil 6-da olduğu kimi:




**Şəkil 6. Meşə havasındakı molekulların modeli:**
1 -azot, 2 -oksigen, 3 -arqon, 4 – karbon qazı, 5 -su, 6 –ozon

**Kimyəvi element.** Kimyəvi element - nüvəsinin yükü eyni olan atomlar növüdür. Hazirda 116 kimyəvi element məlumdur. Kimyəvi elementlər şərti olaraq iki yerə bölünür:

1) Metallar

2) Qeyri metallar

Cəmi 22 qeyri-metal var. Onları dövri sistem cədvəlində yalnız əsas yarımqrupda yerləşib. Belə ki:

a) I əsas yarımqrupda - H

b) II əsas yarımqrupda - yoxdur

c) III əsas yarımqrupda - B

d) IV əsas yarımqrupda - C, Si

e) V əsas yarımqrupda - N, P, As

f) VI əsas yarımqrupda - O, S, Se, Te

g) VII əsas yarımqrupda - F, Cl, Br, J, At (halogenlər)

h) VIII əsas yarımqrupda - He, Ne, Ar, Kr, Xe, Rn (təsirsiz qazlar)

Qalan elementlər isə metallardır: Li, Na, K, Rb, Sc, Be, Mg, Ca, Fe, Ag, Au və s. Onlar da s-, p-, d- və f-metallar olmaqla 4 əsas tipə bölünür və müxtəlif əlamətlərə görə təsnif olunur.

Əsas yarımqruplarda qeyri-metalların sayı III qrupdan başlayaraq bir–bir artır (IIIA-da – 1, IVA-da – 2, VA-da – 3, VIA-da – 4, VIIA-da – 5, VIIIA-da – isə 6).

Mühitdən asılı olaraq, bəzi kimyəvi elementlər amfoter (ikili) xassələr göstərdiyindən onlara amfoter elementlər də deyilir. Məsələn, Be, Zn, Al və s. amfoter xassəli elementlərdir. Hələlik elmə məlum olan 116 kimyəvi elementdən təbiətdə yalnız 89-una rast gəlinir, qalanları isə süni yolla alınır. Elementlər yer qabığında müxtəlif miqdarla yayılmışdır. Yer qabığında ən geniş yayılmış kimyəvi elementlər - oksigen (49,1 %), silisium (27 %), alüminium (7,59 %), dəmirdir (4,28 %) və s.

Kimyəvi element və bəsit maddə anlayışlarını qarışdırmaq olmaz. Bəsit maddə - kimyəvi elementin sərbəst halda varlıq formasıdır. Məsələn, oksigen elementi (O) - sərbəst halda ya ikiatomlu oksigen – $O_2$, ya da üçatomlu ozon – $O_3$ bəsit maddəsi şəklində mövcud ola bilir. Eyni bir elementin müxtəlif bəsit maddələr çəklində mövcud olması allotropiya (şəkildəyişmə), həmən bəsit maddələrə isə allotropik şəkildəyişmələr (modifikasiyalar) deyilir. Məsələn, oksigen və ozon bəsit maddələri oksigen elementinin allotropik şəkildəyişmələridir. Bəzi kimyəvi elementlər: O, S, P, C, Si və s. allotropik şəkildəyişmələr əmələ gətirir.

Allotropik şəkildəyişmələr iki səbəbdən mövcud ola bilər:

1) Molekulun tərkibinə daxil olan element atomlarının müxtəlif sayda olması səbəbindən. Məsələn, oksigen və ozon kimi.

2) Kristal quruluşun müxtəlif formada olması səbəbindən. Məsələn, fosforun allotropik şəkildəyişmələrində (ağ, qırmızı və qara fosforda) olduğu kimi. Belə ki, ağ fosfor – $P_4$ molekul, qırmızı və qara fosfor isə müxtəlif formalı atom kristal quruluşuna malikdir. Bu tipə karbonun allotropik şəkildəyişmələrini də (almaz, qrafit, karbin, fülleren) misal olaraq göstərmək olar. Karbon – kimyəvi element, almaz, qrafit, karbin, fülleren isə müxtəlif kristal quruluşlu bəsit maddələrdir.

Digər tərəfdən də kimyəvi element - atom və molekulu, bəsit maddə isə konkret olaraq maddəni xarakterizə edir. Bəsit maddə - sıxlığı, həllolma qabiliyyəti, ərimə və qaynama temperaturları və s. , kimyəvi element isə nüvəsinin müsbət yükü, sıra nömrəsi, oksidləşmə dərəcəsi, izotop tərkibi və s. ilə səciyyələnir.

Canlı orqanizmin əsas tərkibi H, C, N, va O kimyəvi elementlərindən təşkil olunmuşdur. Bu elementlərə orqanogen (orqanizmi təşkil edən) elementler deyilir. Kosmosda ən çox yayılmış elementlər isə H və He-dur.

Bəsit maddələr da oz növbəsində iki yerə ayrılır:

a) Bəsit maddələr (onların sayı azdır, təxminın 400) – molekulları eyni növ atomlardan təşkil olunub. Məsələn, $O_2$, $O_3$, $H_2$, He, Fe, P, C, Na və s. Onlar çoxatomlu ($H_2$, $O_2$, $O_3$, $N_2$, $F_2$, $Cl_2$ – qaz, $Br_2$ – maye, $J_2$, $P_4$, $S_8$ – bərk) və biratomlu (yerdə qalan qeyri-metallar və bütün metallar) ola bilər. Biratomlu bəsit maddələr kimyəvi işarə, çoxatomlular isə kimyəvi formulla ifadə olunur.

b) Mürəkkəb maddələr (onların sayı milyonlarladır) - molekulları müxtəlif növ atomlardan təşkil olunub. Məsələn, $H_2SO_4$, $SO_3$, $H_2S$, $H_2O$, $CO_2$, HgO, $FeCl_2$, NaBr, $CH_4$, $C_2H_4O_2$ və s.

Mürəkkəb maddələr də öz mənşəyinə görə üzvi və qeyri-üzvi maddələrə bölünür. Qeyri-üzvi maddələrin əsas sinifləri – oksid, əsas, turşu və duzlardır. Üzvi maddələr isə karbonun hidrogen və bəzi digər elementlərlə: O, N, halogenlər və s. əmələ gətirdiyi birləşmələrdir. Məsələn, $CH_4$, $CH_3OH$, $CH_3NH_2$, $CH_3Cl$ və s.

**Kimyəvi işarələr və kimyəvi formullar. Kimyəvi tənliklər.** Kimyəvi işarələr – kimyəvi elementin adının göstəricisidir. O, kimyəvi elementin latınca adının ilk, yaxud ilk iki hərfi ilə ifadə edilir. Məsələn, H, O, K, F, S, P, Cl, Fe, Ag, Hg, Na, Cu, He, Ar və s.

Kimyəvi işarə:

1. Kimyəvi elementin adını
2. Kimyəvi elementin bir atomunu
3. Kimyəvi elementin nisbi atom kütləsini
4. Kimyəvi elementin bir molunu
5. Kimyəvi elementin molyar kütləsini göstərir.

Məsələn, H – hidrogen elementinin kimyəvi işarəsi olub, onun bir atomunu

(bir molunu) göstərir. Dövri sistem cədvəlinə baxmaqla bu elementin adını, nisbi atom kütləsini ($A_r$) və molyar kütləsini (M) müəyyən etmək olur: $A_r$(H)=1 a.k.v.; M(H)=1 q/mol.

Bəzi kimyəvi elementlərin adı ilə oxunuşları eyni, bəzilərində isə fərqlidir. Bu, aşağıdakı cədvəldən daha əyani görsənir:

**Cədvəl 1.** Bəzi elementlərin adları, oxunuşu və kimyəvi işarəsi

| Azərbaycanca adı | Latınca adı | İşarəsi | Azərbaycanca oxunuşu |
|---|---|---|---|
| Azot | Nitrogenium | N | En |
| Alüminium | Aluminium | Al | Alüminium |
| Barium | Barium | Ba | Barium |
| Berillium | Beryllium | Be | Berillium |
| Bor | Borum | B | Bor |
| Brom | Bromum | Br | Brom |
| Natrium | Natrium | Na | Natrium |
| Hidrogen | Hydrogenium | H | haş |
| Dəmir | Ferrum | Fe | ferrium |
| Qızıl | Aurum | Au | Aurium |
| Yod | Iodum | I | Yod |
| Kalium | Kalium | K | Kalium |
| Kalsium | Calcium | Ca | Kalsium |
| Oksigen | Oxygenium | O | o |
| Silisium | Silicium | Si | Silisium |
| Litium | Lithium | Li | Litium |
| Magnezium | Magnesium | Mg | Magnezium |
| Mis | Cuprum | Cu | Cuprium |
| Civə | Hydrargyrum | Hg | Hidrargyrum |
| Qurğuşun | Plumbum | Pb | Plimbium |
| Kükürd | Sulfur | S | es |
| Gümüş | Argentum | Ag | Argentium |
| Karbon | Carboneum | C | Se |
| Flüor | Fluorum | F | Ef |

Kimyəvi formullar - maddələrin tərkibinin göstəricisidir (maddənin miqdarı və vəsfi tərkibinin kimyəvi isarələrlə göstərilməsidir). Buna empirik formul da deyilir. Məsələn, tərkibində 6 ədəd karbon, 12 ədəd hidrogen və 6 ədəd oksigen atomu olan birləşmənin kimyəvi formulu $C_6H_{12}O_6$ kimidir. Kimyəvi formul:

1. Maddənin adını
2. Maddənin bir molekulunu
3. Maddənin nisbi molekul kütləsini
4. Maddənin bir molunu
5. Maddənin molyar kütləsini
6. Maddənin hansı elementlərdən təşkil olunduğunu
7. Maddənin tərkibində olan element atomlarının sayını göstərir.

Məsələn, $H_2SO_4$ formulu sulfat turşusunu, onun bir molekulunu, bir molunu, $M_r$-ini (2·1+32+4·16=98), molyar kütləsini, onun hidrogen, kükürd və oksigen elementlərindən 2:1:4 mol nisbətində təşkil olunduğunu göstərir.

Beləliklə, kimyəvi işarələr atomları, kimyəvi formullar isə molekulları ifadə edir.

Kimyəvi tənliklər - kimyəvi reaksiyaların kimyəvi işarə və kimyəvi formullarla göstərilməsidir. Məsələn, təbii qazın yanma reaksiyası aşağıdakı kimyəvi tənliklə ifadə edilir:

$CH_4 + O_2 \rightarrow CO_2 + H_2O + Q$

Oxdan solda başlanğıc (reaksiyaya daxil olan), sağda isə reaksiya məhsullarının (reaksiyadan alınan) maddələrin formulları "+" işarəsi ilə əlaqələndirilir. Ekzotermik reaksiyalarda +Q, endotermiklərdə isə -Q də göstərilir. Sonra reaksiya tənliyi əmsallaşdırılır, yəni reaksiya tənliyinin sağında və solundakı bütün növ element atomlarının cəmi bərabərləşdirilir. Məsələn,

$CH_4 + 2O_2 \rightarrow CO_2 + 2H_2O$

Bu reaksiya tənliyində hər iki tərəfdəki atomların sayı bərabər olsun deyə, müvafiq maddələrin formullarının qabağında uyğun əmsallar yazıldı və nəhayət, tənliyin sağ və sol hissəsindəki atomların sayı - 1 C, 4H, 4O atomları eyni sayda oldu.

**Nisbi atom və nisbi molekul kütləsi**. Atomların real – həqiqi kütləsi olduqca kiçikdir. Məs. hidrogenin mütləq kütləsi $1/6{,}02\cdot10^{23}$ q-dır. Bu səbəbdən kimyəvi hesablamalarda belə rəqəmlərdən istifadə etmək əlverişli deyil və çox çətinlik törədir. Buna görə də elementlərin nisbi atom kütləsi ($A_r$) anlayışından istifadə edilir. Nisbi atom kütləsi - elementin bir atomunun kütləsinin $^{12}C$-izotopunun kütləsinin 1/12 hissəsinə nisbətidir:

$$A_r = \frac{m(E)}{1/12m(12C)}$$

E – naməlum kimyəvi elementdir.

$^{12}C$-izotopunun kütləsinin 1/12 hissəsi atom kütlə vahidi (a.k.v.) adlanır. Nəzərə alsaq ki, $^{12}C$-izotopunun bir atomunun kütləsi $12/6{,}02\cdot10^{23}$ q-dır, onda onun 1/12 hissəsinin kütləsi olacaq : $1/6{,}02\cdot10^{23}$ ($1{,}66\cdot10^{-24}$) q. Məhz bu miqdar a.k.v. adlanır. Elementin nisbi atom kütləsi dedikdə, onun bir atomunun $^{12}C$-izotopunun kütləsinin 1/12-dən, yəni $1{,}66\cdot10^{-24}$ q-dan neçə dəfə ağır olduğunu göstərir. Məs. $A_r$ (S) = 32 a.k.v. Bu, o deməkdir ki, kükürdün bir atomunun həqiqi kütləsi $^{12}C$-izotopunun kütləsinin 1/12-dən ($1{,}66\cdot10^{-24}$ q) 32 dəfə ağırdır. Molekulun da qramlarla ifadə olunan həqiqi, real kütləsi çox kiçik kəmiyyətdir. Məs. bir su molekulunun kütləsi $18/6{,}02\cdot10^{23}$ ($2{,}99\cdot10^{-23}$) q-dır. Ona görə də hesablamalarda asan və əlverişli olsun deyə, nisbi molekul kütləsindən ($M_r$) istifadə edilir. Nisbi molekul kütləsi - maddənin molekul kütləsinin $^{12}C$-izotopunun kütləsinin l/12 hissəsinə nisbətidir:

$$M_r = \frac{m(X)}{1/12m(12C)}$$

X – naməlum maddədir.

Maddənin nisbi molekul kütləsi dedikdə, maddənin bir molekulunun kütləsinin $^{12}C$-izotopunun kütləsinin 1/12-dən ($1{,}66\cdot10^{-24}$) neçəələn, dəfə ağır olduğunu göstərir.

Maddənin nisbi molekul kütləsini hesablamaq üçün onun tərkibinə daxil olan elementlərin nisbi atom kütləsini formuldakı indeksinə vurub cəmləmək lazımdır. Məsələn, $M_r(CO_2)$=44 a.k.v. ($M_r(CO_2)=12+2\cdot16=44$) Bu, o deməkdir ki, karbon qazının bir molekulunun həqiqi kütləsi $^{12}C$-izotopunun kütləsinin 1/12-dən ($1{,}66\cdot10^{-24}$ q) 44 dəfə ağırdır.

**Mürəkkəb maddədə kimyəvi elementlərin kütlə nisbətinin və kütlə payının hesablanması. Kimyəvi formulun müəyyən edilməsi.** Mürəkkəb maddələrin tərkibini - ifadə olunduğu kimyəvi formulu bilməklə bəzi hesablamaları aparmaq mümkündür:

a) Maddənin nisbi molekul kütləsini ($M_r$). Məsələn, tərkibində 6 C, 12H və 6O atomu olan maddənin nisbi molekul kütləsi – $M_r(C_6H_{12}O_6)=6\cdot12+12\cdot1+6\cdot16=72+12+96=180$ kimi hesablanır ($A_r(C)=12$; $A_r(H)=1$; $A_r(O)=16$).

b) Elementlərin kütlə nisbətlərini. Bunun üçün hər bir elementin formuldakı indeksini onun nisbi atom kütləsinə vurub tam natural ədədlərə qədər yuvarlaqlaşdırmaq lazımdır. Məsələn, tərkibində 6 C, 12H və 6O atomu olan maddədə ($C_6H_{12}O_6$ formullu) $m(C):m(H):m(O)=6\cdot12:12\cdot1:6\cdot16=6:1:8$ kimi hesablanır ($A_r(C)=12$; $A_r(H)=1$; $A_r(O)=16$).

c) Elementlərin kütlə paylarını. Bunun üçün hər bir elementin formuldakı indeksini onun nisbi atom kütləsinə vurub maddənin nisbi molekul kütləsinə bölmək və alınan nisbəti də 100-ə vurmaq lazımdır (faizlə ifadə etmək üçün):

$$\omega(X) = \frac{n\,A_r}{M_r}\cdot100$$

Burada: n – baxılan elementin (X) formuldakı indeksi, $A_r(X)$ – X elementinin nisbi atom kütləsi, $M_r$ – isə maddənin nisbi molekul kütləsidir.

Məsələn, tərkibində 6 C, 12H və 6O atomu olan maddədə ($C_6H_{12}O_6$ formullu):

$\omega(C) = \frac{6.12}{180}\cdot100=40\%$

$\omega(H) = \frac{12.1}{180}\cdot100=6{,}67\%$

$\omega(O) = \frac{6.16}{180}\cdot100=53{,}3\%$ olur.

d) Elementlərin mol nisbətlərini. Elementlərin mol nisbətləri onların kimyəvi formuldakı indekslərinin (atomların mol sayının) sadə tam natural

ədədlərlə ifadə olunmuş nisbəti kimidir. Məsələn, tərkibində 6 C, 12H və 6O atomu olan ($C_6H_{12}O_6$ formullu) maddədə ν(C):ν(C):ν(C)=6:12:6=1:2:1 kimi hesablanır.

e) Elementlərin mol paylarını. Elementlərin mol nisbətləri onların kimyəvi formuldakı indekslərinin (atomların mol sayının) formuldakı bütün element atomlarının ümumi mol saylarına nisbətini 100-ə vurmaq lazımdır (faizlə ifadə etmək üçün). Məsələn, tərkibində 6 C, 12H və 6O atomu olan ($C_6H_{12}O_6$ formullu) maddədə:

$$\nu(C)\% = \frac{6}{6+12+6} \cdot 100 = 25\%$$

$$\nu(H)\% = \frac{12}{6+12+6} \cdot 100 = 50\%$$

$$\nu(O)\% = \frac{6}{6+12+6} \cdot 100 = 25\% \quad \text{olur.}$$

Və ya əksinə, maddənin miqdari tərkibi, yəni maddənin hansı elementlərdən və hansı kütlə və ya mol nisbətində təşkil edildiyi, yaxud elementlərin kütlə nisbəti və ya kütlə payı məlum olduqda onun sadə formulunu müəyyən etmək olar.

Maddələrin sadə və həqiqi formulu mövcuddur. Sadə formul dedikdə maddənin tərkibindəki element atomlarının mol miqdarının ən kiçik tam natural ədədlər nisbətilə ifadə olunmuş formul nəzərdə tutulur. Məsələn, benzolun ($C_6H_6$), asetilenin ($C_2H_2$), stirolun ($C_8H_8$) sadə formulu CH, etanlnkı ($C_2H_6$), -$CH_3$, butanınkı ($C_4H_{10}$) - $C_2H_5$ kimidir və s..

Sadə formulu müəyyən etmək üçün maddənin tərkibinə daxil olan hər bir elementin kütlə nisbətini və ya kütlə payını onun nisbi atom kütləsinə bölüb, tam natural ədədlərə qədər yuvarlaqlaşdırmaq lazımdır. Məsələn:

<u>Məsələ 1.</u> Tərkibi m(C):m(H):m(O)=6:1:8 kimi olan birləşmənin sadə formulunu müəyyən edin. ($A_r$(C)=12; $A_r$(H)=1; $A_r$(O)=16).

<u>Həlli:</u> C, H və O elementlərindən ibarət bu birləşmənin formulunu şərti olaraq, $C_xH_yO_z$ kimi qəbul edək.

x:y:z=6/12:1/1:8/16=0,5:1:0,5

x, y və z kimyəv formuldakı indekslərdir və tam natural qiymətlər almalıdır. Ona görə də yuxarıdakı nisbəti tam natural ədədlərə qədər yuvarlaqlaşdırmalıyıq. Bunun üçün nisbətin hər həddini 2-yə vursaq, tam natural ədədlər alınar və x:y:z=1:2:1 olar. Beləliklə, bu birləşmənin sadə formulu $CH_2O$ kimi olar.

Həqiqi formulu müəyyən etmək üçün isə əvvəlcə, maddənin molyar kütləsi hesablanıb tapılmalıdır. Sonra isə sadə formul yuxarıdakı qaydada müəyyən edilərək, molyar kütləyə uyğunlaşdırılmalıdır. Məsələn:

<u>Məsələ 2.</u> Tərkibi m(C):m(H):m(O)=6:1:8 kimi olan birləşmənin buxarlarının hidrogenə görə nisbi sıxlığının 90 olduğunu bilərək onunn həqiqi

formulunu müəyyən edin. ($A_r(C)=12$; $A_r(H)=1$; $A_r(O)=16$).

Həlli: Əvvəlcə, bu birləşmənin molyar kütləsini hesablayaq:

$M=2\cdot D_{H2}=2\cdot 90=180$ q/mol

Bu birləşmənin formulunu şərti olaraq, $C_xH_yO_z$ kimi qəbul edək:

x:y:z=6/12:1/1:8/16=0,5:1:0,5=1:2:1; Beləliklə, bu birləşmənin sadə formulu $CH_2O$ kimi olur.

Deməli, şərtə görə $M(C_xH_{2x}O_x)=180$

12x+2x+16x=180

30x=180

x=6

Beləliklə, bu birləşmənin həqiqi formulu: $C_6H_{12}O_6$ kimi olur.

**Mövzuya aid çalişmalar**

**1.** Fiziki cisim nədir? Onlara aid misallar göstərin. Cisim və maddə anlayışlarını xarakterizə edin. Onların əsas xüsusiyyətlərini sadalayın.

**2.** I. Kimyəvi maddələr; II. Fiziki cisimlər
a) Karbon b) Dəmir c) Kağız parçası d) Şəkər e) Gümüş bıçaq
Uyğunluğu müəyyən edin.

**3.**Su, xorək duzu, dəmir, oksigen, hidrogen, qum və şəkərin fiziki xassəlıərini müqayisəli şəkildə xarakterizə edin.

**4.** I. Saf maddələr; II. Qarışıqlar; III.Üzvi maddələr; IV.Qeyri-üzvi maddələr
a)karbon b) dəmir c) kağiz parçası d) şəkər e) gümüş bıçaq f) qrafit
g) karbon qazı h) spirt
Uyğunluğu müəyyən edin.

**5.** I. Bəsit maddələr; II. Mürəkkəb maddələr
a) kömür b) aseton c) spirt d) karbon e) dəmir

**6.** Bəsit maddələri seçin:
1.oksigen 2.karbon 3.almaz 4.oksigen qazı
5.ağ fosfor 6.helium 7.karbon qazı 8.hava 9.ozon

**7.** Ətrafınızda olan bir çox cisimlər təbiətdə hazır şəkildə olmayan, lakin kimya zavodlarında istehsal olunan maddələrdən hazırlanmışdır. Onlara aid bir neçə misal göstərin.

**8.** A, B və C bərk maddələrinin qarışığı verilmişdir. X həlledicisi yalnız A-nı, Y həlledicisi A və B-ni, Z həlledicisi B və C-ni, T həlledicisi icə hər üç bərk maddəni həll edir. Bu qarışığı ayırmaq üçün həlledicilərdən hansı ardıcıllıqla istifadə edilməlidir?

**9.** Hansı ifadələrin mənası yoxdur:
1. hava nolekulu; 2.oksigen molekulu; 3.su molekulu; 4.ozon atomu; 5.benzin molekulu

**10.** I.Fiziki hadisələr; II.Kimyəvi hadisələr

a.havadan oksigenin alınması; b.sudan oksigenin alınması; c.şəkərin suda həll olması; d. şamın ərimәsi; e.şəkərin alovda kömürləşməsi; f.şamın yanması

Uyğunluğu müəyyən edin.

**11.** Qarışıqları, bəsit və mürəkkəb maddələri gostərin:

1.hava 2.karbon qazı 3.arqon 4.oksigen 5.benzin 6.çay suyu 7.karbon 8.kömür 9.su

**12.** Dərman maddəsi olan aspirin $C_9H_8O_4$ tərkibinə malikdir. O tamamilə yanaraq, karbon qazı və suya çevrilir. Bunu nəzərə alaraq, aspirinin yanma reaksiyasının tənliyini yazın və əmsallaşdırın.

**13.** $aC_xH_yO_z$ (aspirin) + $bO_2 \rightarrow cCO_2 + dH_2O$ reaksiya tənliyində d=4; a=1; c=9 olduğunu nəzərə alaraq, aspirinin formulunu müəyyən edin.

**14.**Sizi əhatə edən mühitdə bəzi maddələr təbiətdə hazır şəkildə deyil, istehsalatda kimyəvi yolla alınır. Onları göstərin:

1.nişasta 2.polietilen 3.benzin 4.şəkər 5.plastik kütlələr 6.kauçuk 7.oksigen 8.su 9.rezin 10.təbaşir

**15.**Sizi əhatə edən mühitdə bəzi maddələr təbiətdə hazır şəkildə rast gəlir. Onları göstərin:

1.nişasta 2.polietilen 3.benzin 4.şəkər 5.dəmir 6.kauçuk 7.oksigen 8.su 9.rezin 10.təbaşir 11. azot

## İstifadə edilmiş ədəbiyyat:

1. Abbasov M., Abbasov V., Abışov N., Əliyev V. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün Kimya fənni üzrə dərslik. Bakı, "Aspoliqraf", 2016

2. Abbasov V., Abbasov M.,Xanlarov T. və b. **Kimya** (abituriyentlər üçün dərs vəsaiti), Bakı, "Abituriyent", 2018

3.Мануйлов А. В., Родионов В. И.Основы химии. Интернет-учебник, основан в 2001 г. Последнее обновление 2017 г.

4. Кузьменко Н.Е., Еремин В.В., Попков В.А. Начала химии, Современный курс для поступающих в вузы. Т.1/ Кузьменко Н.Е. и др.-16-е изд., перераб. и доп.-М.:Экзамен, 2016

5. Гузей Л.С.и др. Химия: 8 класс: Учеб. Для общеобразоват. учеб. заведений. –М.: Дрофа,1995

6. Рэмсден Э.Т. Начала современной химии. – Л.:Химия, 1989

7. Хомченко Г.П. Химия для поступающих в вузы.-М.: Высщая школа, 1993

8. Химия: Справочные материалы / Под ред. Ю.Д.Третьякова. 3-е изд.-М.: Просвещение, 1993

*Н.А.Акперов*

**Основные понятия и термины химии в современных представлениях**


**РЕЗЮМЕ**

В этой статье основы химических понятий и терминов объяснены простой и доступной форме, современным подходом. Это помогает читателям укрепить свои знания о химии. В статье основные понятия и термины химии объясняется в полном соответствии с программой приема, опубликованной Государственным Экзаменационном Центром (ГЕЦ) по химии. В статье также приведены упражнения, посвященные к теме, которые помогают лучше усвоить предмет.


*N.E. Ekberov*

**Basic concepts and terms of chemistry in modern concepts**


**SUMMARY**

In this article, the basics of chemical concepts and terms are explained in a simple and accessible form. This helps readers strengthen their knowledge of chemistry. In the article, the first concepts and terms of chemistry are explained in full accordance with the admission program published by the State Examination Center (GEC) for Chemistry. The article also contains exercises on the topic that help better learn the subject.



**Açar sözlər:** Maddə**,** kimyəvi element, bəsit və mürəkkəb maddə, allotropiya, atom, molekul, nisbi atom və nisbi molekul kütləsi, kimyəvi işarə və formul, kimyəvi tənliklər.

**Ключевые слова:** Вещество, химический элемент, простые и сложные вещества, аллотропия, атом, молекула, относительная атомная и молекулярная масса, химическое обозначение, химическое уравнение.

**Key words:** Substance, chemical element, simple and complex substances, allotropy, atom, molecule, relative atomic and molecular weight, chemical designation, chemical equation.